# Xocalı faciəsi bəşəriyyətə qarşı yönəldilmiş cinayətdir

***Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidləriinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.***

**İlham Əliyev.**

Vəhşiləşmiş erməni millətçiləri 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının qüvvələri ilə birlikdə Xocalı soyqırımını törətdilər. Bu qırğın nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Azərbaycanın bu qədim sivilzasiya mərkəzlərindən olan Xocalı şəhəri hələ 1991-ci ilin oktyabr ayından hər tərəfdən düşmən əhatəsində idi. Oktyabrın 30-da avtomobil yolları bağlandıqdan sonra şəhərlə əlaqə saxlamaq yalnız vertolyotla mümkün idi. Sonuncu mülki vertolyot 1992-ci il yanvarın 28-də Xocalıya gələ bilmişdi, lakin Şuşa şəhəri üzərində 40 nəfərlik mülki vertolyotun vurulmasından sonra hava yolları da bağlanmışdı. 1992-ci il yanvarın 2-dən şəhərin elektrik enerjisi də kəsilmişdi. Xocalı əhalinin və onun müdafiəçilərinin iradəsi və dözümü sayəsində yaşaya bilirdi.

Şəhər əsasən yüngül atıcı silahlarla silahlaniış yerli könüllü dəstələri, milis və Milli Ordunun birləşmiş qüvvələri tərəfindən müdafiə olunurdu. Fevralın ikinci yarısında Xocalı erməni hərbi birləşmələrinin blokadasına alınaraq müntəzəm şəkildə hər gün artilleriya və ağır hərbi texnikadan atəşə tutulurdu. Xocalı üç tərəfdən mühasirəyə alındığı üçün əhali yalnız Əsgəran istiqamətində irəliləyib xilas olmağa can atırdı. Lakin tezliklə aydın oldu ki, bu, bir tələdir. Naxçıvansk kəndi yaxınlığında ermənilər əliyalın, silahsız əhalini fasiləsiz atəşə tutdular. Şaxtalı havada meşələri qət edərək taqətdən düşmüş insanların-uşaqların, qadınların, qocaların çoxu məhz Əsgəran Naxçıvanik yolunda erməni qaniçənlərin törətdiyi vəhşiliklərin qurbanı oldular. Ermənilər bu faciədən sonra belə, vertolyotlar vasitəsilə ağ xalat və maskalarda meşələri gəzərək insanları əsir götürməkdən çəkinməmişdilər. O vaxtki Azərbaycan hökuməti isə faciəni xalqdan gizlətməyə çalışmışdı.

Fevralın 28-də Milli Qəhrəman Çingiz Mustafayevin başçılıq etdiyi yerli jurnalistlərdən ibarət qrup vertolyotla azərbaycanlıların məhv edildiyi əraziyə gəlmişdilər. Hərtərəf avtomat gülləleri və süngülərlə qətlə yetirilmiş, qoca, uşaq və qadın meyitləri ilə dolu idi. Ermənilərin fasiləsiz atəşləri yalnız dörd cəsədi götürməyə imkan vermişdi. Martın 1-də xarici və yerli jurnalistlərdən ibarət qrup buraya gəldikdən sonra faciənin miqyası daha aydın görünmüşdür. Bir çox meyitlərin bədənləri süngü ilə deşik-deşik edilmiş, başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, burun və qulaqları kəsilmişdi. Bu dəhşətli mənzərə əslində erməni faşizminin bütün dünyaya bir xəbərdarlığı idi. Təəssüf ki, hələ də bu xəbərdarlıqdan nəticə çıxarmayan, erməni terrorizminin bəşəriyyətin gələcəyi üçün necə bir bəla olduğunu başa düşməyənlər vardır. Ümumiyyətlə, o gün 613 nəfər soydaşımız qəddarlıqla qətlə yetirilmiş, yüzlərlə insan yaralanmış, 1275 nəfər isə əsir düşmüşdür.

Bu faciə təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Hələ XIX əsrdən başlayaraq «Türkmənçay» müqaviləsindən dərhal sonra Naxçıvan və İrəvan xanlıqları hesabına yaradılmış erməni vilayətinin ərazisi getdikcə Azərbaycan torpaqları hesabına genişləndirilmiş və nəticədə bu günki Ermənistan Respublikası yaradılmışdır. XX əsrdə Azərbaycan xalqına qarşı dəfələrlə kütləvi deportasiya və soyqırımı aksiyaları törədilmiş və Qərbi Azərbaycandan bütün azərbaycanlıların əzəli torpaqlarından zorla çıxarılmışdır.

Bu Xocalı faciəsinin tarixi hadisə kimi yadda saxlamaqla kifayətlənməməliyik. Ümummilli liderimiz Heydər Əliyev demişdir: «Azərbaycan milləti aciz millət deyildir. Azərbaycan gənci erməni gəncindən aciz, gücsüz, cəsarətsiz deyil,əksinə, azərbaycanlılar daha qüdrətli, güclü və cəsarətlidir. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır».

Düşməndən qisası ancaq döyüş meydanında almaq mümkündür.

**Aslan CƏLİLOV.**

# Tarixdə görünməyən hadisə

Xocalı faciəsi 200 ildən də çox-çox irəli erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi. 1988-ci ildən xeyli əvvəllər sovet imperiyasının dağılmasına doğru aparılan siyasətdən istifadə edən erməni millətçiləri və erməniprəst separatçı qüvvəllər ötən əsrin əvvəllərində olduğu kimi yenidən baş qaldımış, «Böyük Ermənistan» yaratmaq xülyası ilə Dağlıq Qarabağ vilayətini və ona bitişik olan rayonları Azərbaycandan qoparıb Ermənistana birləşdirmək xülyasına düşmüşlər.

SSRİ-nin milli münaqişələr zəminində dağıdılması ssenarisinin müəllifləri, bu ssenarini həyata keçirməyə çalışan qüvvəllər erməni millətçi separatçıların Dağlıq Qarabağ kartından ustalıqla istifadə etdilər. Bakıda 1990-cı il 20 Yanvar qırğınından sonra M. Qorbaçov-Erməni separatçıları iş birliyinə arxalanan ermənilər Dağlıq Qarabağda daha da fəallaşdılar, azərbaycanlıların əzəli torpaqlarından çıxarılmasını sürətləndirdildər. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı hadisələrlə bir sırada duran qırğın törətdilər. O vaxt Xankəndi şəhərində yerləşmiş və xeyli hissəsi ermənilərdən ibarət olan keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının zirehli texnikasının, həmçinin hərbiçilərinin köməyi ilə bütöv bir şəhər--Xocalı yerlə-yeksan edildi. Aylarla blokadada qalan zəifləmiş Xocalı şəhərinin müdafiəçiləri sayca onlardan qat-qat çox olan və təpədəndırnağa qədəp silahlanmış ermənilərin hücumlarını dəf edə bilmədilər. Dəhşətli hadisə Azərbaycan tarixinə qanlı hərflərlə həkk olundu. Hücum zamanı şəhərin 3 min nəfər əhalisindən 613 nəfər, o cümlədən 106-i qadın, 63-ü uşaq, 70-i qoca olmaqla xüsusi qəddarlıqla öldürülmüşdür. 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanmış, 1275 nəfər girov götürülmüş və insanlıqla bir araya sığmayan işgəncələrə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil. 8 ailə isə tamamilə məhv edilmişdir.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, ölümün pəncəsindən çətinliklə, olmazın əzab-əziyyətlə canını qurtaran bir qrup Xocalı sakini o vaxt rayonumuza pənah gətirmişdi. İlk vaxtlar rayon rəhbərliyi onları texniki peşə məktəbində yerləşdirmişdir. Rayon təşkilatları, ayrı-ayrı vətəndaşlar xocalılara yardım üçün onlara baş çəkməyə gəlmişdildər. Qəzetimizin əməkdaşı kimi mən də onlarla görüşə getmişdim. Ermənilər tərəfindən Xocalılara verilən əzab-əziyyətləri, doğma torpaq həsrətləri barədə söhbətlərini həyəcansız dinləmək mümkün deyildi. Onları dinləyənlərin gözündən istər-istəməz yaş axırdı. 50-60 yaşlarında bir kişi (adını unutmuşam) deyirdi:--Yerdə diyirlənə-diyirlənə sağımasoluma yağış kimi yağan güllələrdən təsadüfən sağ qalmışam. Xocalıda hər şeyim vardı. Mişar daşdan iki mərtəbəli ev tikdirmişdim, hətta «06» markalı minik avtomaşınım da vardı. Evim də, içi dolu ev əşyalarım, avtomaşınım da orada qaldı, Onların hamısını bax, bu əllərimlə, öz zəhmətimlə qazanmışdım. lakin indi onların heç biri vecimə deyil, təki bircə o torpağa qayıdaydım. Xocalı torpağının hər qarışı qızıldır. O torpaqda həyatımı yenidən qurardım-deyə gözlərindən axan yaş məni də kövrəltdi. 20-22 yaşlı cavan qız isə danışırdı:

--Ailəmizin hamısını ermənilər qırdı. Bir həftə öncə qardaşımın toyu olmuşdu. Bu da --yanımdakı gənc qadını göstərdi--gəlinimizdir--dedi: Qardaşım və biz ikimiz təsadüf nəticəsində salamat qalmışıq. O da bizi cəbhədən aralı keçən bir maşına mindirib dedi:- Siz gedin, sizi hara aparsalar, gedin. Mən geriyə--cəbhəyə qayıdıram, valideynlərimin, qardaşlarımın qanını ermənilərdən almayınca geri dönməyəcəyəm. Ona çox yalvardıq, lakin bizimlə gəlmədi. Qızlar göz yaşları içərisində sanki boğulurdular. Ağlamaqdan başqa çarələri qalmamışdı.

Eməni milliyyətçilərinin, onlara havadarlıq edən separatçı qüvvələrin xocalılara qarşı dünyada misli-bərabəri olmayan amansızdıq və qəddarlığından 24 il keçməsinə baxmayaraq Azərbaycan xalqı bu gün də bu hadisələri unutmur. Hər il fevral ayının 26-da Xocalı soyqırımının ildönümü qeyd olunur. Bu il də həmin soyqırımı hadisəsini qeyd etmək üçün bütün təşkilatlarda, idarə və müəssisələrdə ciddi hazırlıq işləri aparılmaqdadır.

**Nadir ATAKİŞİYEV.**

## Son 12 il: Rəqəmlər faktlar

Respublikada qeyd olunan müddətdə 25 elektrik stansiyası tikilib, ölkə üzrə qazlaşma 90 faizə yaxınlaşıb. 10 min kilometrdən çox yol çəkilib, 3 min məktəb, 600-ə yaxın xəstəxana, 41 olimpiya mərkəzi tiklib, maaşlar 5 dəfə, pensiyalar 7 dəfə artıb. Məcbüri köçkünlər üçün 225 min inşanın yaşadığı 89 şəhərcik salınıb.

## Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi 2016-cı il yanvarın 1-dən nəzərə alınmışdır.

Ölkə başçısı İlham Əliyevin sosial məsələlərlə bağlı imzaladığı sərəncamlardan biri də Əmək pensiyalarının sıgorta hissəsinin indeksləşdirilməsidir. Sərəncama görə indeksləşdirmə yanvarın birindən tətbiq ediləcəkdir. Əmək pensiyalarının sıgorta hissəsinin indeksləşdirilməsi 2006-cı ilin yanvar ayının 1-dən tətbiq edildikdən sonra 2007-ci ildən başlayaraq bu məsələ ilə bağlı 10 sərəncam verilmişdir.

2015-ci ildə istehlak qiymətlərinin 4 faizlik indeksi qeydə alınıb. Sıgorta olunanların əmək pensiyalarının indeksləşdirilməsində də bu göstərici nəzərə alınıb. İndeksləşdirmə pensiyaçıların 95 faizinə şamil olunacaq və bunun üçün dövlət tərəfindən 39 milyon manat əlavə vəsait ayrılmışdır.